

1003
Çağrı mərkəzi

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**ANTİMİKROB PREPARATLARIN DÜZGÜN TƏTBİQİ İLƏ HEYVAN MƏNŞƏLİ QİDA MƏHSULLARININ BU PREPARATLARLA ÇİRKLƏNMƏ TƏHLÜKƏSİNİ AZALTMAQ MÜMKÜNDÜR. ODUR Kİ:**

- Antimikrob preparatlar yalnız baytar həkimin təyinatı əsasında istifadə olunmalı
- Antimikrob preparatların baytar həkimi tərəfindən təyin edilmiş dozalarda və müddətdə istifadəsi təmin edilməli
- Antimikrob preparatlarnın kortəbii və ya təlimata uyğun olmayaraq istifadəsi yolverilməzdir

# BAYTARLIQ TƏYİNATLI ANTİMİKROB PREPARATLARDAN DÜZGÜN İSTİFADƏ

Əhalinin təhlükəsiz və keyfiyyətli heyvan mənşəli qida məhsulları ilə təmin olunmasında heyvan sağlamlığı vacib şərtdir. Bu məqsədlə antimikrob preparatlardan istifadə qaçılmazdır. Antimikrob preparatlardan heyvandarlıqda xəstəliklərin müalicəsi və profilaktikası məqsədilə istifadə edilir.

# ANTİMİKROB PREPARATLARIN UZUN MÜDDƏTLİ VƏ YA KORTƏBİİ İSTİFADƏSİNİN TƏHLÜKƏLƏRİ:

1. **Patogen və şərti patogen** mikroorqanizmlərdə antimikrob rezistentliyin yaranması;

2. **Antimikrob preparatlara** qarşı davamlı yeni bakteriya növlərinin yaranması;

3. **Heyvanlarda** aparılan müalicə tədbirlərinin səmərəsiz qalması;

4. **Çarpaz və multirezistentliyin** yaranması;

Antimikrob rezistentliyi ciddi və bəşəri problem olub heç bir sərhəd tanımır. O insan və heyvan sağlamlığı, eləcə də ətraf mühitin təhlükəsizliyi üçün təhdid mənbəyidir.

Antimikrob preparatların heyvandarlıqda minimum səviyyədə və səmərəli istifadəsi təhlükəsiz ərzaq istehsalında zəruri şərtdir.

Dövlət qeydiyyatına alınmamış baytarlıq preparatlarının heyvandarlıqda tətbiq edilməsi yolverilməzdir.

Baytarlıq təyinatlı antimikrob preparatların effektivliyinin artırılması məqsədilə onların düzgün saxlanılması təmin olunmalıdır.